

**Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmişdir. Bu qərar bir daha onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişdir. Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# "Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verib"

***Bugünlərdə 100 yaşını qeyd edən Bakı Dövlət Universiteti respublikamızda ən qocaman ali təhsil müəssisəsidir. BDU fəaliyyət göstərdiyi dövr ərzində 200 mindən çox mütəxəssis, o cümlədən bir sıra xarici ölkələr üçün yüzlərlə yüksək ixtisaslı kadrlar hazırlamışdır. Hazırda 24 mindən çox tələbənin təhsil aldığı bu elm və təhsil ocağı dünyanın 60-dan çox ölkəsinin 200-dən çox elmi və tədris mərkəzi ilə əməkdaşlıq əlaqələri qurub. Bu gün də Bakı Dövlət Universiteti ölkəmizin ən qabaqcıl təhsil ocaqlarından biridir.***

## BDU-nun dünya şöhrətli məzunu

Bakı Dövlət Universitetinin 100 illik yubileyi mərasimində geniş nitq söyləyən Prezident İlham Əliyev bu ali məktəbin Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edildiyini və bu qərarın xalqımız qarşısında böyük xidmətlər göstərdiyini diqqətə çatdırdı. Şərqdə ilk demokraik dövlətin qurucuları savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq üçün ziyalı təbəqəsinin olmasının vacibliyini yaxşı dərk edirdilər. Belə bir ali təhsil ocağının yaradılması ideyası AXC qurucularının uzaqgörənliyinin nəticəsi idi. Bu siyasi təfəkkür Bakı Dövlət Universitetinin fəaliyyət göstərdiyi 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verməsində özünü bir daha büruzə verdi. Məzunlardan görkəmli şəxslər, tanınmış alimlər, adlı-sanlı ictimai xadimlər, siyasətçilər, mütəxəssislər bu gün də hörmət və ehtiramla yad edilir. Ən layiqli məzun isə müstəqil Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyev olub. Dövlətimizin başçısı nitqində də bunu xüsusi vurğulayaraq, ulu öndərin Azərbaycan xalqı qarşısındakı danılmaz xidmətlərindən söhbət açdı: "Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, -- gənclər təbii ki, bunu bilmirlər, -- respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici "Qırmızı bayraq" var idi. Yəni, "Qırmızı bayraq" ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax, Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu "Qırmızı bayrağı" alırdı. Bu, bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir".

Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başladığı ilk illər hər birimizin xatirindədir. O dövrdə Azərbaycan, demək olar ki, əksər sahələr üzrə sonuncu yerlərdə idi. Müdrik şəxsiyyətin uzaqgörən siyasəti, dövlət idarəçiliyindəki unikal qabiliyyəti nəticəsində Azərbaycan misilsiz uğurlara imza atdı və İttifaq miqyasında ən qabaqcıl yerlərə qədər yüksəldi. Həmin dövrdə cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri məhz Azərbaycan idi.

Müstəqilliyə gedən yol Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin xalq və dövlət qarşısındakı misilsiz xidmətləri onun hər bir vətənpərvər, xalqını, millətini sevən soydaşımızın qəlbində əbədi heykəlini qoydu. Ümummilli liderin yaratdığı güclü kadr potensialı ölkəmizin, müstəqil dövlətimizin uğurlu inkişafını təmin etdi, bu gün də təmin edir. Azərbaycanın dünyanın sayılıb-seçilən dövlətlərindən birinə, beynəlxalq aləmdə söz sahibinə çevrilməsi ulu öndər Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsinin, Vətəninə, xalqına, millətinə sonsuz məhəbbətinin təzahürüdür.

## AXC-Müsavat iqtidarının antimilli fəaliyyəti

Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycanı düçar olduğu bəladan – parçalanmadan, dünya xəritəsindən silinmək təhlükəsindən, vətəndaş qarşıdurmasından xilas etməsidir. 1992-ci ildə hakimiyyəti qeyri-qanuni yolla ələ keçirən AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti, dövlət idarəçiliyindəki naşılığı yenicə qazanılmış müstəqilliyi uçuruma daha da yaxınlaşdırırdı. Başları var-dövlət toplamağa qarışan hakimiyyət nümayəndələri respublikanın müdafiəsini tamamilə unutmuşdular. Bundan istifadə edən erməni qəsbkarları ərazilərimizi hissə-hissə işğal edirdilər. Daxildə birincilik üstündə gedən dava-dalaş sonradan silahlı münaqişəyə çevrildi və ölkəyə rəhbərlik edənlər canlarını götürüb hərəsi bir yana qaçdı. Dövlətimizin başçısı nitqində bu hadisələri də diqqətə çatdırdı: "Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar, ikisi Moskvaya, biri Kələkiyə. Bu, fərarilikdir, bu, satqınlıqdır, bu, xəyanətdir. Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər. AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar".

Ölkəyə rəhbərlik etdikləri dövrdə heç bir uğura imza ata bilməyən AXC-Müsavat cütlüyü əhalinin öz şəxsi qızılları hesabına yaradılmış ləl-cəvahirat fondunu da taladılar. Bu fondun məqsədi əhalidən yığılmış ləl-cəvahiratın hesabına cəbhə bölgəsinə silah-sursat almaq idi. Hətta o vaxtkı hakimiyyət könüllük adı ilə insanların özlərinə məxsus qızıllarını zorla alırdılar. Guya, bu yolla texnika, silah-sursat alınacaqdı. Bəs o vaxt yığılan qızılların aqibəti necə oldu?

Dövlətimizin başçısı AXC- Müsavat cütlüyü dövründə ölkədə yaranmış ağır vəziyyətdən də söhbət açdı. Qeyd etdi ki, o günlər hələ də yaddaşlardan silinməyib. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əlisilahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti – özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclərin bu tarixi bilməsinin vacibliyini vurğulayan ölkə başçısı müəllimlərin bu tarixi onlara çatdırmalarının vacibliyini tövsiyə etdi.

Qeyd olundu ki, bu gün bir qrup radikal müxalifət gənclərin beynini zəhərləməyə, onları hakimiyyətə qarşı mübarizəyə səsləyir. Lakin onların çağırışına əhəmiyyət verən yoxdur. Dövlət başçımızın qeyd etdiyi kimi, nə qədər çalışsalar, əlləşsələr, yalan – böhtan yaysalar da, istəklərinə nail ola bilmirlər. Çünki əhalinin mütləq əksəriyyəti bu hakimiyyətə, Heydər Əliyev siyasətinə alternativ görmür. Artıq havadarları da onlardan üz döndərib.

## Dünyada Azərbaycana rəğbət artır

Azərbaycan artıq dünyada söz sahibinə çevrilmiş dövlətlərdəndir. Ölkəmizdə həyata keçirilən islahatlar, irimiqyaslı layihələrin reallaşdırılması, əhalinin güzəranının getdikcə yüksəlməsi, demokratik ənənələrə böyük önəm verilməsi ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu daha da artırıb. Təbii ki, bütün bu uğurlar antimilli dairələri və anti-Azərbaycan qüvvələri ciddi təşvişə salıb. Onlar ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq üçün dəridən-qabıqdan çıxırlar. Ancaq həyata keçirilən düşünülmüş xarici siyasət düşmənlərimizin xəbis niyyətlərini ürəklərində qoyub. Dövlətimizin başçısı öz nitqində bir daha vurğuladı ki, artıq dünyada bizə inanırlar: "Dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 8 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də necə seçilmişik. İndi diplomatlar bunu yaxşı bilirlər ki, adətən, səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. Üç gün, 16 tur". Bu səsvermədə də ikili standartlar açıq şəkildə özünü büruzə verdi. Dövlətimizin başçısı bildirdi ki, on altı tur və üç gün bizim üzvlüyümüzü əngəlləmək istəyirdilər. Hətta Azərbaycanın öz namizədliyini geri götüzdürtmək istəyirdilər. Ancaq buna nail ola bilmədilər. Bu səsvermədə Azərbaycan 155 ölkənin dəstəyini qazandı.

Artıq dünya miqyasında ölkəmizə inam xeyli artıb. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi də bu inamın bariz nümunəsidir. Ölkə başçısı öz nitqində bu tarixi hadisə barədə də məlumat verdi: "Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladıq. Mən sizə deyim və Bakıda keçirilmiş zirvə görüşü onu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri – 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə".

Dövlətimizin başçısı bir daha bəyan etdi ki, dövlət müstəqilliyini Heydər Əliyev qorudu, saxladı və gücləndirdi, bizi doğru yola gətirdi: Biz də onun yolu ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik".

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.- 2019.- 28 noyabr. S. 1.